**https://doi.org/10.58225/tim.2026-1-618-622**

**S.S.Əsədova**
***i.f.d., AR ETN İqtisadiyyat İnstitutunun böyük elmi işçisi***
***sabina_esedova@mail.ru***

*Məqalə redaksiyaya daxil olub 15.11.2025*
*The article was received by editorial board on 15.11.2025*
*Статья принята к печати 15.11.2025*

# POST-KONFLİKT ƏRAZİLƏRDƏ AQRAR İSTEHSALIN TRANSFORMASİYASI: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ÜZRƏ MÜQAYİSƏLİ-STATİSTİK TƏHLİL

**Xülasə**

*Məqalədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aqrar istehsalın inkişaf dinamikası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 2020–2024-cü illərin statistik məlumatları əsasında təhlil edilir. Təhlil nəticəsində Qarabağ iqtisadi rayonunda istehsalın sabit artım, Şərqi Zəngəzur iqtisadi rayonunda isə sürətli, lakin qeyri-sabit inkişaf nümayiş etdirdiyi müəyyən olunur. Nəticələr post-konflikt şəraitində aqrar sektorun inkişaf xüsusiyyətlərini əks etdirir və gələcək tədqiqatlar üçün metodoloji əsas yaradır.*

***Açar sözlər:*** *aqrar istehsal, post-konflikt inkişaf, regional təhlil, Qarabağ, Şərqi Zəngəzur.*

## GİRİŞ

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadi fəaliyyətin bərpası dövlətin regional inkişaf strategiyasının prioritet istiqamətlərindən biridir. Xüsusilə aqrar sektor bu prosesdə mühüm rol oynayır, çünki həmin ərazilər zəngin torpaq ehtiyatları, əlverişli iqlim şəraiti və kənd təsərrüfatı istehsalı üçün geniş potensiala malikdir. Uzun müddət ərzində təsərrüfat dövriyyəsindən kənarda qalmış torpaqların yenidən iqtisadi fəaliyyətə cəlb edilməsi ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və regional iqtisadi inkişafın sürətləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Tədqiqatın əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar istehsalın dinamikasını statistik məlumatlar əsasında təhlil etmək, regional inkişafın xüsusiyyətlərini müəyyənləşdirmək və aqrar sektorun bərpa prosesinin əsas meyllərini qiymətləndirməkdən ibarətdir. Tədqiqat çərçivəsində istehsal göstəricilərinin zaman üzrə dəyişməsi, iqtisadi rayonlar üzrə fərqlər və istehsalın struktur xüsusiyyətləri müqayisəli şəkildə araşdırılır. Bu yanaşma post-konflikt şəraitində kənd təsərrüfatının inkişaf trayektoriyasını müəyyən etməyə və regionlararası fərqlərin səbəblərini izah etməyə imkan verir. Eyni zamanda, aparılmış təhlil yalnız mövcud vəziyyətin qiymətləndirilməsi ilə məhdudlaşmır, həm də gələcək tədqiqat istiqamətlərinin formalaşdırılması baxımından əhəmiyyət kəsb edir. Belə ki, əldə olunan nəticələr növbəti tədqiqatlarda işğaldan azad olunmuş ərazilərdə aqrar istehsalın inkişafı ilə bağlı praktiki əhəmiyyəti yüksək olan metodoloji yanaşmaların işlənməsi üçün empirik əsas rolunu oynaya bilər.

Bu baxımdan, tədqiqatın nəticələri həm elmi, həm də tətbiqi aspektdə əhəmiyyətli olub, regionda aqrar siyasətin formalaşdırılması, resursların səmərəli bölgüsü və kənd təsərrüfatı istehsalının optimallaşdırılması istiqamətində qərarların qəbuluna töhfə verə bilər.

**Tədqiqat metodları.** Tədqiqat çərçivəsində göstəricilərin zaman üzrə dinamikası və struktur xüsusiyyətləri təhlil edilmişdir. Təhlildə əsas diqqət göstəricilərin dəyişmə istiqamətinə, artım templərinə və subsektorlar üzrə nisbi payların dəyişməsinə yönəldilmişdir. Müqayisəli iqtisadi təhlil metodu vasitəsilə bitkiçilik və heyvandarlığın inkişaf sürətləri arasında fərqlər qiymətləndirilmişdir.

**Əsas hissə**

Post-konflikt ərazilərdə kənd təsərrüfatının inkişafı bir sıra spesifik xüsusiyyətlərlə xarakterizə olunur. Bu xüsusiyyətlərə torpaqların minalardan təmizlənməsi, infrastrukturun bərpası, kənd təsərrüfatı texnikası və logistika sistemlərinin formalaşdırılması, eləcə də dövlət tərəfindən subsidiyalar və digər dəstək mexanizmlərinin tətbiqi daxildir. Bütün bu amillər kənd təsərrüfatı istehsalının dinamikasına birbaşa təsir göstərir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma tədbirləri göstərir ki, perspektivdə aqrar sektorun inkişafı enerji, nəqliyyat və logistika infrastrukturunun genişləndirilməsi ilə paralel şəkildə reallaşdırılacaqdır. Regionda inşa edilən beynəlxalq hava limanları, müasir avtomobil yolları [5] və planlaşdırılan dəmir yolu xətləri iqtisadi aktivliyi artırmaqla yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixrac imkanlarının genişlənməsinə şərait yaradır.

Məlumdur ki, sovet dövründə bu ərazilərin iqtisadi strukturunda kənd təsərrüfatı aparıcı sahə kimi çıxış etmişdir. Kənd təsərrüfatı təyinatlı torpaqların təxminən 71,8%-i (489,0 min hektar) yüksək və yaxşı keyfiyyətli torpaqlardan ibarət olmuş, 4,0%-i aşağı keyfiyyətli, cəmi 0,2%-i isə şərti olaraq istifadəyə yararsız kateqoriyaya aid edilmişdir [7]. Bu göstəricilər regionun aqrar potensialının yüksək olduğunu təsdiqləyir. Tarixi statistik məlumatlar və ərazilərin mövcud resurs potensialı nəzərə alınaraq, hazırkı mərhələdə bu ərazilərdə kənd təsərrüfatının inkişaf perspektivlərinə dair müxtəlif proqnoz xarakterli tədqiqatlar aparılmaqdadır. Belə tədqiqatlardan biri professor N.Müzəffərli və digər tədqiqatçılar tərəfindən hazırlanmış "Post-konflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər" adlı elmi işdir. Həmin tədqiqatda işğaldan əvvəlki dövrə (1980-ci illər) aid ət və ət məhsulları istehsalı üzrə statistik göstəricilər əsasında post-konflikt ərazilərdə bu sahənin inkişaf potensialı qiymətləndirilmişdir [4]. Nəticələr göstərir ki, sözügedən ərazilər respublikanın hazırkı ət və ət məhsulları idxalının təxminən yarısını əvəz edə biləcək həcmdə – yəni 27–30 min ton [6, s.165] civarında istehsal potensialına malikdir [4]. İnzibati rayonlar üzrə aparılmış proqnozların təhlili göstərir ki, ət və süd məhsullarının istehsalı baxımından ən yüksək göstəricilər Laçın rayonu üçün nəzərdə tutulur (müvafiq olaraq 5,4 min ton və 23,9 min ton). Bu sahədə növbəti yerləri isə Cəbrayıl (3,7 min ton və 21 min ton) və Kəlbəcər (3,3 min ton və 20,9 min ton) [3, s.24] rayonları tutur [4].

Təqdim olunan tarixi statistik məlumatlar və proqnoz qiymətləndirmələri işğaldan azad olunmuş ərazilərin aqrar sektor üzrə yüksək istehsal potensialına malik olduğunu göstərir. Lakin beynəlxalq təcrübə göstərir ki, pos.t-konflikt regionlarda aqrar potensialın real iqtisadi nəticələrə çevrilməsi yalnız resursların mövcudluğu ilə deyil, eyni zamanda istehsalın strukturunun düzgün formalaşdırılması və prioritet sahələrin müəyyənləşdirilməsi ilə şərtlənir. Post-konflikt şəraitdə kənd təsərrüfatının ilkin bərpa mərhələsində aşağı riskli və tez nəticə verən bitki növlərinin seçilməsi daha məqsədəuyğun hesab olunur. Bu baxımdan dənli və dənli paxlalı bitkilər geniş torpaq sahələrinin qısa müddətdə əkin dövriyyəsinə cəlb edilməsinə imkan verməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayan strateji məhsul qrupunu təşkil edir [9]. Beynəlxalq təcrübə göstərir ki, geniş torpaq ehtiyatlarına malik ölkələrdə məhz taxıl və paxlalı bitkilərin ixracyönlü inkişafı yüksək iqtisadi səmərə yarada bilir. Məsələn, Ukrayna və Kanada kimi ölkələrdə taxıl sektoru kənd təsərrüfatı ixracının əsas hissəsini təşkil edir. Avstraliya və Argentina təcrübəsi də göstərir ki, dənli və yağlı toxum bitkiləri böyük miqyaslı mexanikləşdirilmiş istehsal şəraitində yüksək əlavə dəyər yarada bilər [8].

Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə ilkin mərhələdə dənli və paxlalı bitkilərin istehsalına üstünlük verilməsi həm ərzaq təhlükəsizliyi, həm də aqrar iqtisadi reinteqrasiya baxımından iqtisadi cəhətdən əsaslandırılmış seçim kimi qiymətləndirilə bilər.

Zənnimizcə, ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyan və ölkənin idxaldan daha çox asılı olduğu məhsul qrupları üzrə – ilk növbədə dənli və dənli paxlalı bitkilər, eləcə də heyvandarlıq məhsulları üzrə istehsalın inkişaf səviyyəsinin qiymətləndirilməsi xüsusi aktuallıq kəsb edir. Aqrar istehsalın bu istiqamətlər üzrə təşkili və inkişaf dinamikasının təhlili həm mövcud potensialın reallaşma səviyyəsini müəyyən etməyə, həm də gələcək inkişaf prioritetlərini əsaslandırmağa imkan verir

**Dənli və dənli paxlalı bitkilərin istehsal dinamikası**

Dənli və dənli paxlalı bitkilər kənd təsərrüfatı istehsalında strateji məhsul qruplarından biri hesab olunur. Bu məhsullar həm daxili ərzaq bazarının təmin olunması, həm də kənd təsərrüfatı istehsalının ümumi strukturunda mühüm paya malikdir. Buna görə də işğaldan azad olunmuş ərazilərdə bu məhsulların istehsal dinamikasının təhlili aqrar sektorun bərpa prosesinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

2020–2024-cü illər üzrə aparılmış statistik təhlil göstərir ki, işğaldan azad olunmuş ərazilərdə dənli və dənli paxlalı bitkilərin istehsalı iki iqtisadi rayon üzrə fərqli inkişaf trayektoriyası nümayiş etdirir. Qarabağ iqtisadi rayonunda istehsal nisbətən sabit və mərhələli artım dinamikası göstərdiyi halda, Şərqi Zəngəzur iqtisadi rayonunda daha sürətli, lakin dalğavari inkişaf müşahidə olunur.

Qarabağ iqtisadi rayonunda 2020-ci ildə 436,7 min ton təşkil edən istehsal həcmi 2024-cü ildə 476,4 min tona yüksəlmişdir. Bu dövr ərzində ümumi artım 9,1% təşkil etmişdir. Orta illik artım tempi təxminən 2,2% səviyyəsində formalaşmışdır. 2021-ci ildə müəyyən azalma müşahidə olunsa da, sonrakı illərdə istehsalın bərpası və artımı qeydə alınmışdır.

Şərqi Zəngəzur iqtisadi rayonunda isə istehsalın daha sürətli artımı müşahidə olunur. 2020-ci ildə cəmi 10,2 min ton olan istehsal 2024-cü ildə 39,5 min tona çatmışdır. Bu isə demək olar ki, 3,9 dəfə artım deməkdir. Lakin bu artım sabit deyil və illər üzrə dəyişkən xarakter daşıyır. Bu dinamika post-konflikt regionlarda torpaq ehtiyatlarının mərhələli şəkildə təsərrüfat dövriyyəsinə daxil edilməsi ilə izah olunur.

**Cədvəl 1**

**Dənli və dənli paxlalı bitkilərin istehsalı və artım göstəriciləri (2020–2024)**

| İl | Qarabağ iqtisadi rayonu (ton) | İllik dəyişmə % | Şərqi Zəngəzur iqtisadi rayonu (ton) | İllik dəyişmə % | Şərqi Zəngəzurun Qarabağa nisbəti % |
|---|---|---|---|---|---|
| **2020** | 436 695,7 | — | 10 166,1 | — | 2,3% |
| **2021** | 389 840,8 | −10,7% | 22 226,7 | +118,7% | 5,7% |
| **2022** | 409 670,9 | +5,1% | 28 507,6 | +28,3% | 7,0% |
| **2023** | 409 486,4 | −0,04% | 19 102,7 | −33,0% | 4,7% |
| **2024** | 476 448,7 | +16,4% | 39 507,2 | +106,8% | 8,3% |

***Mənbə:*** *AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [1].*

Cədvəl 1-dən göründüyü kimi, Qarabağ iqtisadi rayonunda istehsalın dəyişməsi nisbətən sabit xarakter daşıyır. Əksinə, Şərqi Zəngəzur iqtisadi rayonunda yüksək artım templəri ilə yanaşı kəskin dalğalanmalar müşahidə olunur. Bu dalğalanmalar regionda torpaq resurslarının və kənd təsərrüfatı infrastrukturlarının mərhələli şəkildə bərpa olunması ilə bağlı ola bilər.

2020-ci ildə Şərqi Zəngəzur iqtisadi rayonunun Qarabağ iqtisadi rayonuna nisbəti cəmi 2,3% təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 8,3%-ə qədər yüksəlmişdir. Bu artım regionun aqrar potensialının tədricən reallaşmağa başladığını göstərir.

**Aqrar istehsalın digər sahələr üzrə göstəriciləri**

Kənd təsərrüfatının inkişafı yalnız bitkiçilik sahəsi ilə məhdudlaşmır. İşğaldan azad olunmuş ərazilərdə heyvandarlıq və digər aqrar sahələrin də inkişafı müşahidə olunur. Bu sahələr üzrə statistik göstəricilər regionun aqrar iqtisadiyyatının ümumi inkişaf dinamikasını daha geniş şəkildə qiymətləndirməyə imkan verir.

**Cədvəl 2**

**Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı**

| Göstərici | 2020 | 2024 | Dəyişmə % |
|---|---|---|---|
| Taxıl istehsalı | 10166 ton | 39507 ton | +289% |
| Meyvə və giləmeyvə | 1228 ton | 1327 ton | +8% |
| Tərəvəz | 1157 ton | 1215 ton | +5% |
| Ət istehsalı | 5726 ton | 6842 ton | +19% |
| Süd istehsalı | 42210 ton | 57391 ton | +36% |
| Yumurta | 14618 min | 16443 min | +12% |
| Yun | 673 ton | 817 ton | +21% |
| Arı ailələri | 41593 | 76479 | +84% |

***Mənbə:*** *AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən işlənmişdir [2].*

Cədvəl 2-dən təqdim olunan məlumatlar göstərir ki, regionda aqrar sektorun inkişafı yalnız bitkiçilik sahəsində deyil, həm də heyvandarlıq və arıçılıq sahələrində müşahidə olunur. Xüsusilə taxıl istehsalında 289%-lik artım qeydə alınmışdır ki, bu da regionda torpaqların aktiv şəkildə əkin dövriyyəsinə cəlb olunduğunu göstərir.

Arıçılıq sahəsində də əhəmiyyətli inkişaf müşahidə olunur. Arı ailələrinin sayının 84% artması kənd təsərrüfatının diversifikasiyasının və alternativ gəlir mənbələrinin formalaşmasının göstəricisi hesab edilə bilər.

**NƏTİCƏ**

Aparılmış təhlil göstərir ki, işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun inkişafı mərhələli və qeyri-xətti xarakter daşıyır. Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı istehsalının daha sabit olması bu regionda aqrar strukturun daha əvvəl formalaşması ilə əlaqədardır. Şərqi Zəngəzur iqtisadi rayonunda isə sürətli, lakin qeyri-sabit artım müşahidə olunur.

Bu fərqlər regionların iqtisadi və institusional inkişaf səviyyəsi, infrastruktur təminatı və torpaq resurslarının istifadəyə verilmə tempi ilə bağlıdır. Post-konflikt şəraitində kənd təsərrüfatının inkişafı əsasən torpaq ehtiyatlarının bərpası, kənd təsərrüfatı texnikasının təminatı və dövlət dəstəyi proqramlarının tətbiqi ilə müəyyən olunur.

Aparılan kompleks təhlil göstərir ki, regionda kənd təsərrüfatı sektoru post-münaqişə dövründə sürətli bərpa mərhələsindədir və istehsal artımı əsasən resursların genişlənməsi hesabına baş verir. Bitkiçilikdə artım daha çox əkin sahələrinin genişləndirilməsi ilə əlaqədar olduğu halda, heyvandarlıq daha stabil və davamlı inkişaf modeli nümayiş etdirir.

Uzunmüddətli perspektivdə sektorun rəqabət qabiliyyətinin artırılması üçün intensiv texnologiyalara əsaslanan inkişaf modelinə keçid, istehsal strukturunun diversifikasiyası və aqrar dəyər zəncirinin inkişafı əsas prioritet istiqamətlər kimi çıxış etməlidir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı bitkilərinin ümumi yığımı. Dənli və dənli paxlalı bitkilərin istehsa. URL: https://www.stat.gov.az/source/agriculture/

**2.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Regionlar. Şərqi Zəngəzur iqtisadi rayonu. URL:https://www.stat.gov.az/source/regions/

**3.** Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları. Bakı, 2021. URL:https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf

**4.** Əsədova S.S. Azərbaycan Respublikasinda rəqəmsallaşmanin aqrar sektorun iqtisadi inkişafina təsirinin qiymətləndirilməsi / fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dis. / – Bakı, 2025. – 200 s.

**5.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan yol layihələri barədə məlumat. URL:http://www.aayda.gov.az/az/news/3319

**6.** Post-konflikt ərazilər: iqtisadi potensial müqayisəli üstünlüklər / N.Müzəffərli, A.Musayev, A.Muradov [və b.] – Bakı: Qafqaz nəşriyyat evi, – 2023. – 297 s.

**7.** Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri // Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı, – 2020. №4(34), – s.38-44.

**8.** OECD-FAO Agricultural Outlook 2021-2030. URL: https://www.oecd.org/en/publications/oecd-fao-agricultural-outlook-2021-2030_19428846-en.html

**9.** Strengthening Food Security in Acute Crisis Settings: First Insights from North-east Nigeria. 2018. URL: https://isdc.org/wp-content/uploads/2019/02/Strengthening_Food_Security.pdf

**S.S.Asadova**
*PhD in Economics, Senior Researcher, Institute of Economics,*
*Academy of Sciences of the Republic of Azerbaijan*

## Transformation of agricultural production in post-conflict areas: comparative-statistical analysis on Karabakh and Eastern Zangazur

**Abstract**

*This study analyzes the dynamics of agricultural production in Azerbaijan's liberated territories based on statistical data for 2020–2024, focusing on the Karabakh and East Zangezur economic regions. The results indicate that production in the Karabakh economic region exhibits stable growth, while the East Zangezur economic region demonstrates rapid but volatile development. The findings reflect the specific characteristics of agricultural development in post-conflict conditions and provide a methodological basis for future research.*

***Keywords:*** *agricultural production, post-conflict development, regional analysis, Karabakh, East Zangezur.*

**Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.**
**Qrant № AEF-MQM-QA-3-2025-3(56)-03/03/5-M-03**